*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 274-280*
https://doi.org/10.62837/2024.4.274

**RƏNA N.RZAYEVA**
AMEA akad.Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun İran
filologiyası şöbəsinin aparıcı elmi
işçisi, dos.
rzayeva1958@icloud.com

# ŞƏRQİN MƏDƏNİ-MƏNƏVİ VƏ SOSİAL-SİYASİ HƏYATINA TƏSİR GÖSTƏRƏN ƏN MÜHÜM AMİLLƏRDƏN BİRİ SUFİZM

***Xülasə***

Məqalə orta əsr Şərqinin mədəni-mənəvi və sosial-siyasi həyatına təsir göstərən ən mühüm amillərdən biri olan sufizmi araşdırmağa yönləndirilmişdir. Məqalədə təsəvvüfün keçdiyi yolu və formalaşmasını nəzərdən keçirərək onun ifrat və mötədil istiqamətlərinə müəyyən qədər aydınlıq gətirməyə cəhd edilmişdir. Təqdim olunmuş məqalədə həmçinin təriqətlərdən, təriqət ədəbiyyatından, bu ədəbiyyatın yaranması və yayılmasından bəhs edilmişdir. Bundan başqa məqalədə sufizmin, ilkin olaraq, kökünü zahidlikdən götürüldüyü və sufilərin də, bir növ zahidlərin davamçıları olduğu da nəzərə çatdırılır.

Bundan başqa məqalədə təsəvvüflə fəlsəfənin ortaq bir nöqtədə kəsişdiyindən, onların bir-birini tamamladığından bəhs edilir. Fəlsəfənin dünyəvi, təsəvvüfün isə ruhani aləmlə bağlılılğından bəhs olunur. Məqalədə İslam çərçivəsində meydana gəlmiş və insanın Allahla şəxsi psixoloji təcrübə vasitəsilə birbaşa ünsiyyətini (qovuşmasını) mümkün sayan «sufizm» mistik və dini-fəlsəfi bir dünyagörüşü haqqında ümumi təsəvvürün yaranmasına cəhd edilmişdir.

Bu nöqteyi-nəzərdən təsəvvüfün fəlsəfə ilə paralel şəkildə öyrənilməsi, tədqiq edilməsi nəzərə çatdırılır.

***Açar sözlər:*** Şərq, «Munisnamə», farsdilli ədəbiyyat, təsəvvüf, təriqət, ifrat sufilik , mötədil sufilik, zöhd, zahidlik.

**Рзаева Р. Н.**

**Суфизм один из основных факторов имеющий влияние на культурно-духовную и общественно-политическую жизнь Востока**

***Резюме***

Статья направлена на изучение суфизма, одного из важнейших факторов, повлиявших на культурно-духовную и общественно-политическую жизнь средневекового Востока. В статье предпринята попытка прояснить радикальные и умеренные направления суфизма путем рассмотрения его пути становления. В представленной статье также рассказывается о тарикатах, тарикатской литературе, создании и распространении этой литературы. Кроме

того, в статье также упоминается, что суфизм изначально уходит корнями в аскетизм, и что суфии являются последователями неких отшельников.

Кроме того, в статье упоминается, что суфизм и философия пересекаются в одной точке и дополняют друг друга. Не просто так говорят, что философия связана со светским миром, а суфизм — с духовным миром.

В статье предпринята попытка создать общее представление о мистическом и религиозно-философском мировоззрении «суфизм», возникшего в рамках ислама и считающего возможным непосредственное общение человека с Богом посредством личного психологического опыта.

С этой точки зрения суфизм следует изучать и изучать параллельно с философией.

***Ключевые слова:*** Восток, «Муниснама», персоязычная литература, тарикат, радикальный суфизм, умеренный суфизм, аскет, аскетизм.

**Rena N. Rzayeva.**

**Sufism is one of the main factors that have influence on cultural-spiritual and social-political life of the East**

***Summary***

The article is directed to the study of Sufism, one of the most important factors influencing the cultural-spiritual and socio-political life of the medieval East. In the article, an attempt has been made to clarify the extreme and moderate aspects of Sufism by reviewing its formation and path. The presented article also talks about sects, sect literature, creation and spread of this literature. In addition, the article also mentions that Sufism was originally rooted in asceticism and that Sufis are followers of some kind of hermits.

In addition, the article mentions that Sufism and philosophy intersect at a common point and that they complement each other. It is said that philosophy is related to the secular world, and Sufism is related to the spiritual world.

In the article, an attempt was made to create a general idea of a mystical and religio-philosophical worldview of "Sufism" that emerged within the framework of Islam and considers it possible for a person to communicate directly with God through a personal psychological experience.

***Key words:*** East, «Munisnama», Persian-language literature, tariqat, sekt, radical sufism, moderate sufism, ascetic, asceticism.

From this point of view, Sufism should be studied and studied in parallel with philosophy

Şərqşünaslıq elmi yaranandan etibarən çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik farsdilli ədəbiyyatın öyrənilməsi ciddi uğurlar qazanılmış, onun dünya mədəniyyəti xəzinəsinə əvəzsiz töhfələr vermiş görkəmli nümayəndələrinin yaradıcılığı zəruri aspektlərdə tədqiq olunmuş, ən mühüm ədəbi-tarixi abidələr müxtəlif dillərə tərcümə edilmişdir. Bununla belə əldə olunmuş şəksiz nailiyyətlər

heç bir vəchlə son hədd sayıla bilməz, çünki dünyanın müxtəlif kitabxanalarında, şəxsi kolleksiya və arxivlərdə klassik farsdilli ədəbiyyatın hələ elm aləminə bəlli olmayan, öyrənilməmiş çoxsaylı abidələri mövcuddur. Vaxtaşırı olaraq belə əsərlərin üzə çıxarılması, elmi dairələrə və geniş oxucu kütləsinə çatdırılması faktı bunu təsdiq edir.

Hələ keçən əsrin sonlarında elm aləminə təqdim olunmuş və müəyyən qədər öyrənilmiş, araşdırılmış qiymətli ədəbi abidələrdən biri də XII əsr müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəridir. Bu əsərin tədqiqi yolunda müəyyən işlər görülmüşsə də, bunun kifayət qədər olmasını iddia etmək düzgün olmaz. Belə ki, «Munisnamə» ümumən orta əsrlər müsəlman Şərqində ədəbi inkişafın bir çox məsələlərinə işıq salan abidə kimi olduqca qiymətli və müəyyən mənada unikal əsərdir. Təkcə ədəbi əsər kimi deyil, həm də bir mənbə kimi dəyərləndirilməsi zəruri görünən, maraqlı hekayətlər, nağıllar, rəvayətlər, lətifələr, müdrik kəlamlar və aforizmlər toplusu olan «Munisnamə» farsdilli ədəbiyyat tarixində müəyyən ədəbi təmayülün yetkinləşməsində dönüş nöqtəsi olmuşdur. Bu əsəri müxtəlif aspektlərdən dəyərləndirmək, ona müxtəlif nöqteyi-nəzərdən yanaşaraq bütün incəliklərini çözüb üzə çıxarmaq üçün, şübhəsiz ki, hələ çox illər, tədqiqatlar, araşdırmalar tələb olunur.

«Munisnamə»nin yazıldığı dövrdə müsəlman Şərqinin mədəni-mənəvi və sosial-siyasi həyatına təsir göstərən ən mühüm amillərdən biri sufizm idi. İslam çərçivəsində meydana gəlmiş və insanın Allahla şəxsi psixoloji təcrübə vasitəsilə birbaşa ünsiyyətini (qovuşmasını) mümkün sayan «sufizm» mistik və dini-fəlsəfi bir dünyagörüşü olaraq (7, s.4) çox böyük sürətlə yayılmış və bütün yaradıcılıq sahələrinə nüfuz etmişdir.

Ümumiyyətlə sufizm nədir, sufi kimdir sualı hələ də, tam olaraq, öz dəqiq cavabını almamışdır. İslam dininin mistik yönünü təqib edənlərin yolu sufizmdən keçir. Bu təlim özündə düzlüyü, dürüstlüyü, nəfsanə hisslərdən uzaq durmağı, öz mənini dəf etməyi, özünü dərk etməyi və bu kimi üstün xüsusiyyətləri cəm edir. Bu dini - fəlsəfi təlim insan qəlbinin ən gizli tərəflərini öyrənib aşkar edir. Sufilər İlahi gerçəkliyin dərki yolunda, Haqqa qovuşmaq üçün müəyyən qanunları, qadağaları qəbul edib mücadilə edirlər. Sufizm insanların iç dünyalarını kəşf etmələrinə, öz məninə qalib gəlmələrinə və İlahi gerçəklıiyə çatmağa yardımçı olur.

Sufizm fəlsəfəsi tək bir İlahi varlığı və kaintda olan hər bir şeyin bu İlahi varlığa bağlılığını qəbul edib bu yöndə köklənir. Bu təlimə görə, hər insanın içində İlahi bir işıq vardır və bu işıq insanın özünü və kainatı dərk etməsinə gedən yolu işıqlandırır. Bu təlim kainat varlıqlarının hamısının bir-biri ilə əlaqəli və hər birinin İlahi varlığa bağlı olması nəzəriyyəsini irəli sürür.

Sufizm çox uzun bir yol ilə irəliləyərək çox geniş vüsət almışdır. Təsəvvüf elmi geniş yayılaraq bütün yaradıcılıq sahələrinə nüfuz etmişdi. Bu təlim tez bir zamanda ədəbiyyatda da özünə çox yüksək yer, məqam tutmuşdur. İslam Şərqində orta əsrlərə aid bədii söz sərvətinin mühüm bir qolunu təriqət ədəbiyyatı təşkil edir. Ümumiyyətlə, təriqət ədəbiyyatı bu dövrün bədii-fəlsəfi düşüncəsində, dini-ədəbi məfkurəsində o qədər önəmli yer tutur ki, bütün orta əsrlər müsəlman aləminin söz sənətini və bədii sərvətini təriqət ədəbiyyatı olmadan təsəvvür etmək mümkün deyil.

Orta əsrlər Azərbaycan ədəbiyyatı da ümumislam ədəbiyyatı müstəvisində qərarlaşdığından və çoxcəhətli tellər və əlamətləri ilə ona bağlandığından, nəhayət, bu sistemin bir parçası olduğundan onun da ədəbi meydanını təriqət ədəbiyyatı olmadan təsəvvür etmək mümkün deyil. Əgər təriqət ədəbiyyatı nümunələrini orta əsrlər ədəbiyyatımızdan ayırsaq, çox əsrlik bir dövrün kasıb bir görkəmə düşdüyünü görərik.

Ədəbiyyat tarixində «Təkkə Ədəbiyyatı» adı altında özünü göstərən sadə, axıcı, bəzən lirik və bəzən təlimi (didaktik) xarakter daşıyan əsərlərdə dini-təsəvvüfi dəyərlər xüsusi yer alır. Təsəvvüfi dərinliyin ədəbiyyata xüsusi bir zənginlik və olğunluq qazandırdığı bir gerçəklikdir.(11, s.80,81)

Təriqət ədəbiyyatı orta əsr islam şərqində yaranmış ədəbi irsin ən mühüm hissəsini təşkil edir. Ümumiyyətlə, təriqət ədəbiyyatı orta əsr şərq ədəbiyyatının bədii-fəlsəfi fikri, dini-ədəbi düşüncəsi baxımından o qədər dəyərli və o qədər önəmli mövqeyə malikdir ki, həmin dövrün ədəbiyyatı haqqında təriqət ədəbiyyatından söz açmadan bəhs etmək mümkün deyildir. Burada klassik təsəvvüf ədəbiyyatı içərisində xüsusi əhəmiyyətə malik «ər-Riayəli-hüquqillah» əsərinin müəllifi Haris ibn Əsəd Mühasibinin (v.243/857), təsəvvüf düşüncəsinin ilk təmsilçisi Hakim Tirmizinin (v.320/932), təsəvvüf elminin mənbələri və meydana çıxma şəraitini ilk dəfə qələmə almış Əbu Nəsr Sərracın (v.378/988), kəlam, fiqh, hədis alimi olan Əbu Bəkr Kələbazinin (v.380/990), zöhd, ibadət, itaət və təsəvvüfün praktiki cəhətlərini izah etmiş Əbu Talib Məkkinin (v.386/996), sünni təsəvvüfün sistemləşdirməsi baxımından xüsusi çəkiyə malik Əbdülkərim Quşeyrinin (v.465/1072), təsəvvüf haqqında fars dilində yazılmış ilk əsərin müəllifi Əli ibn Osman əl-Cüllabi əl Hücvirinin (v.465/1072), kəlam, fəlsəfə və təsəvvüf ustadı olan Məhəmməd Qəzalinin (v.505/1111), Bağdadda «şeyxlər şeyxi» kimi tanınan Əbu Həfs Sührəverdinin (v.632/1234), təsəvvüfi təfəkkürün ən mühüm təmsilçisi Muhyiddin ibn Ərəbinin (v.638/1240), eşq və vəcd şairi Mövlana Cəlaləddin Ruminin (v.672/1273) adlarını çəkmədən, onların özlərindən sonra bu yola qədəm basanlar üçün yazıb qoyduqları irsi xatırlamadan əsas mövzuya keçmək, zənnimizcə, düzgün olmazdı. (3, s.35-37)

Sufizmin formalaşma mərhələsi VIII-X əsrlərə təsadüf edir ki, bu dövrdə o, asketizmdən (zahidlik hərəkatından) ayrılaraq müstəqil dini-fəlsəfi və əxlaqi bir təlimə çevrilir. Doğrudur, bəzi tədqiqatçılar zahidliyi nəzəri irsi, müəyyən təlimi, doktrinası olmadığı üçün sufiliyə aid etmirlər. Asketizmin dünya nemətlərindən əl çəkib, tərki-dünya olub haqq yoluna qədəm qoymaqdan başqa bir şey olmadığını iddia edirlər və bu şübhəsiz ki, çox mübahisəyə səbəb olur. Belə ki, sufizmin, məhz, zahidliyin içindən doğan bir təlim olduğunu təsdiq edən bir çox faktlardan biri də, onda da tərki-dünyalıq prinsipinin mövcudluğudur. Bundan başqa, sufizmin aparıcı ideyaları olan daxili, mənəvi təmizlənmə, dünya nemətlərindən imtina, nəfs üzərində hakim olmaq kimi xüsusiyyətlər də kökünü, məhz, zahidlikdən götürmüşdür. ( 6, s.33) X əsrin sonları XI əsrin əvvəllərində İslam dünyasının ehkam ilahiyyatı öz sonuna yetişməkdə idi, məhz bu dövrdə yaradılmış hər hansı tarixi, aqioqrafik və başqa ədəbi abidələrdə dövrün tanınmış, nüfuzlu ilahiyyat alimlərinin, müxtəlif

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 274-280*
təriqətlərin nüfuzlu nümayəndələrinin təsiri açıq-aşkar təzahür edirdi.(5, s.94) Nəhayət təsəvvüf, şəriət və fəlsəfə təlimləri ortaq bir məxrəcdə birləşərək cəmiyyətə öz təsirini göstərməyə başlamışdır. (5, s.99) Əslində, təsəvvüflə fəlsəfənin kəsişdiyi bir fundamental məqam mövcuddur. Mahmud Erol Kılıcın «Təsəvvüfə giriş» kitabının «Təsəvvüf Ezoterik Bir Hikmət Fəlsəfəsidir» bölümündə oxuyuruq: «Fəlsəfə ilə təsəvvüfün birləşdiyi və ya ayrıldığı məqam mövcuddur. Cəlaləddin Dəvvani deyir: «Təsəvvüf ilə fəlsəfə qonşudurlar. Bir-birlərini ziyarət edərlər». Hər hansı bir məsələ antoloji (dünyanın yaranışını öyrənmək prinsipləri) və epistemoloji (dünyanın yaradılmasının prinsiplərinin öyrənilməsi şərtləri) məsələləri öyrənməyə yönəlmişdirsə, bunu «fəlsəfə» adlandırmaq olar. Təsəvvüf isə ezoterik, inisiyatik (batini və cilddən-cildə, haldan-hala düşmə, dəyişmə) baxımdan bir hikmət fəlsəfəsidir. Çünki «Təsəvvüf», əslində, bir din fəlsəfəsidir».(9. səh.87)

Artıq XI-XII əsrlərdə sufizm öz inkişafında ən intensiv mərhələyə daxil olur. Məhz bu dövrdə təsəvvüf ideyaları bütün müsəlman dünyasına yayılaraq, intellektual elitanın imtiyazı olmaq keyfiyyətini itirir, onun nəzəri əsaslandırılması sahəsində sonrakı inkişaf mərhələlərinin xarakterini müəyyən edən ciddi addımlar atılır, ilk mütəşəkkil təriqətlər yaranır və nəhayət, sufi ideologiyası poeziyaya nüfuz edir. Mahmud Erol Kılıç yazır: «Sufilərin şeirlərində istifadə etdikləri üsullar sufilərin çox müraciət etdikləri məcaz və ya alleqoriyadır».(9. səh.90) Ümumiyyətlə özündə sirr, alt mənalar gizlədən, fikir, ideyalarını məcazlarla ifadə edən poeziya birbaşa sufiliklə bağlıdır. Əsl fəaliyyət sahəsi könül aləmi olan təsəvvüf mənəvi və dəruni hiss, fikir və həyacanları bəlli bir üslub və ədəb daxilində sətirlərdə, misralarda, yəni kəlamlarda əks etdirmişdir. Yəni, təsəvvüfi dərinliyin və məzmun kamilliyinin ədəbiyyata xüsusi bir zənginlik, dolğunluq gətirməsi bir gerçəklikdir». (8. səh.80,81)

Y.E.Bertelsin yazdığı kimi, əl-Qəzalinin (1059-1111) islahatı və XII əsrin tarixi hadisələri nəticəsində «sufizm elementləri ədəbiyyatın bütün növlərinə daxil olur və sonrakı bir neçə əsr ərzində öz hakim mövqeyini qoruyub saxlayır» (4, s.43). Məhz, böyük alim, filosof, sufi-mistik əl-Qəzalinin sayəsində ayrı-ayrılıqda inkişaf edən və İslam inancının zəifləməsinə gətirib çıxaran fəlsəfə, batinilik, təsəvvüf, kəlam bir yerə cəm olmuş və İslamın sarsılmazlığına xidmət etmişdir. Eyni zamanda, Qəzali sufilərə müsəlman cəmiyyətində başqaları ilə bərabərhüquqlu ünsür kimi yaşamaq haqqını qazandırmışdır. (2, s.29) Elə, məhz, bu dövrdə Əbu Səid ibn Əbi-l Xeyr (967-1049), Xacə Abdullah Ənsari (1006-1088), Əbü-l Həsən Əli ibn Osman ibn Əli əl-Qəznəvi əd-Cüllabi əl Hucviri (1009-1072), Sənai Qəznəvi (1048-1150) və nəhayət, Fəridəddin Əttar Nişapuri (1119-1230) farsdilli sufi ədəbiyyatının ən parlaq nümunələrini yaratmışdırlar.

Həmin dövrdə «sufilik» ayrı-ayrı mütəfəkkirlərin təliminə görə şaxələnib müəyyən ordenlərə çevrilirdi. XII əsrdə Əbu Nəccəb Sührəverdinin və onun qardaşı oğlu Əbuhəfs Sührəverdinin adı ilə bağlı sührəverdilik, Əhməd Rifainin adı ilə bağlı rifailik, Əbdülqadir Gilaninin adı ilə bağlı qadirilik, Nəcməddin Kübranın adı ilə bağlı kübravilik, Əhməd Yasəvinin adı ilə bağlı yasəvilik və başqa ordenlər yaranmışdır. Onlar sonrakı dövrlərdə formalaşaraq bitkin cərəyanlara çevrilmişlər.

Təsəvvüf mötədil (mülayim) və ifrat (sərt) olmaqla iki istiqamətdə inkişaf edirdi. Mötədil sufilər İslam monoteizmindən kənara çıxmırdılar, ifrat sufilər isə az-çox dərəcədə panteizmə meyl göstərirdilər. Azərbaycanda sufizmin mötədil qolunun ən güclü nümayəndələri «sührəvərdilik» cərəyanının başçısı Əbu Nəccəb Sührəverdi və onun qardaşı oğlu Əbuhəfs Sührəverdi olmuşdur.( 12.) Azərbaycanda ifrat sufiliyin ən parlaq mütəfəkkirləri kimi isə Məhəmməd Bakuvini, Əbülfərəc Zəncanini göstərmək olar.(1, s.60)

Sufi təliminin mötədil qoluna mənsub mütəfəkkirin nəzərində təsəvvüf şəriətdən başlayıb, təriqətdən (mənəvi kamillik yolundan) keçərək həqiqətdə sona yetir. Birinci mərhələ elm, ikinci mərhələ əməl və üçüncü mərhələ vergi ilə səciyyələnir. O bu mənada deyir: «Təsəvvüfün əvvəli elm, ortası əməl, axırı ilahi vergidir. Elm muradı aşkar edir, əməl tələbi müəyyənləşdirir, ilahi vergi ümidi qayəsinə çatdırır».(1, s.59) İslamda ət-tövhid (monoteizm)
«Allahdan başqa ilahi yoxdur» («La ilahə illəllah») hökmü ilə Allahın birliyini iqrar etməkdədir. Mötədil sufilərə görə insan öz «mən»ini itirib «Allah»ın «Mən»ində vücuda gəlir.

İfrat sufilər isə İnsan ilə Allahı eyniləşdirmişlər. «Mən haqqam» ideyasını irəli sürmüşlər. Bu isə artıq «əl-hülul» (təcəssüm), «əl-ittihad» (birləşmə) terminləri ilə ifadə olunan «panteizm»ə gətirib çıxarmışdır (1, s.62,63)

Bu baxımdan sufiliyin hər iki qolunu öyrənmək, tədqiq etmək həmişə maraq, diqqət doğurmuşdur. Bu səbəbdən son zamanlar Azərbaycanın elm aləmində təsəvvüfə böyük maraq yaranmış və bu istiqamətdə geniş araşdırmalar, elmi tədqiqatlar, maraqlı işlər həyata keçirilir. Ümumiyyətlə, sufilikdən söz açıb, Azərbaycan sufi məktəblərini, cərəyanlarını xatırlamamaq doğru olmaz. Bu baxımdan, Azərbaycan böyük bir irsə malikdir. Azərbaycanda təsəvvüfün tarixi X əsrdən başlayır. Ədəbiyyatda təsəvvüfi dövr adlandırılan müəyyən zaman kəsiyində məşhur azərbaycanlı sufi alimlər yaşamışdır. Onlardan Əbu Hüseyn Dündari-Şirazi, Hüseyn ibn Yəzdinyar, Əbu Həsən, Əbu Züra, Əbu Abbas, Əbu Səid Abdal Bakuvi, Əli ibn Məhəmməd ibn Abdullab Bakuvi, Hüseyin Şirvani, Əbu Abbas Əhməd, Əxi Fərəc Zəncani, Baba Fərəc, Xacə Məhəmməd Xoşnam, Hüseyn Mərəndi, İbrahim Təbrizi, Əbülfərəc Əbülvahid Varsani, Səid Bərdəyi, Əbubəkr Əhəri, Əbdülqahir Sührəverdi və digər çox sufi alimlərin adlarını çəkmək mümkündür. XII əsr isə Azərbaycan təsəvvüfündə təriqətlər dövrünün başlanğıcıdır. İlk qurulan təriqətlər arasında azərbaycanlı sufilərin yaratdıqları təriqətlər mühüm rola malikdir. Ümumiyyətlə, demək olar ki, Azərbaycan bu dövrdən etibarən təriqətlər mərkəzi olmuşdur. Böyük təsəvvüf hərəkatı olan əxiliyin Anadolu qolu, təriqətlərdən sührəvərdilik, hürufilik, zahidilik, səfəvilik, xəlvətilik və xəlvətiliyin qolları rövşənilik və gülşənilik təriqətləri Azərbaycanda doğulmuş və buradan bütün İslam aləminə yayılmışdır. Ümumiyyətlə, İslam aləmində yayılmış təriqətlər və sufi cərəyanlarının bir çoxu Azərbaycan mənşəlidir. (13)

Mehmet Rıhtım «Qırxlar. Azərbaycanın Sufi Pirləri» kitabında yazır: «Şübhəsiz ki, bir torpağın vətən olmasında və bir topluluğun millət olmasındakı ən mühüm amil onun sahib olduğu, daşıdığı mədəni, mənəvi dəyərlərdir. Bu mənada on

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 274-280*

dörd əsrlik keçmişə sahib Azərbaycan müsəlmanlığının tarixində sufilik silinməz izlər buraxmışdır. Sufilik - ədəbiyyatdan, fəlsəfədən başqa pirlər, təkyələr, türbələr ilə də bu torpaqların həqiqi sahiblərini göstərən canlı şahidləri, bir növ mülkiyyət sənədləri olmuşdur. Bu izlər Azərbaycan xalqı üçün bir yadigar dəyərində çox qiymətlidir. Bunlara sahib çıxmaq, bunları öyrənmək və qorumaq millətin tarixini, mədəniyyətini qorumaq deməkdir».(10.səh.7)

## İstifadə olunmuş ədəbiyyat:

1. Məmmədov Z. Azərbaycan Fəlsəfəsi Tarixi. Bakı, Şərq-Qərb 2006 328 səh.
2. Xavəri S. Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu" Bakı – «Elm» – 2016, 180s.
3. Təsəvvüf Tarixi. II nəşr. Bakı İslam Universiteti nəşri № 04 Bakı – 2011 Elmi Redaktor: Dr. Rafiz Manafov 359 səh.
4. Бертельс Е.Э. Суфизм и суфийская литература. М.,«Наука»,1965, 527 с.
5. Маматов М.А. Сущность суфизма: для студентов с углубленным изучением истории и культуры ислама–Уфа: Изд-во БГПУ, 2011, 168 с.
6. И.Р.Насыров Основания Исламского Мистицизма Генезис и Эволюция Языки Славянских Культур Москва 2009. 552 səh.
7. Тримингем Дж.С. Суфийские ордены в исламе.М.,«Наука»,1989, 328с.
8. Yılmaz. Hasan.Kamil. Anahlarıyla tasavvuf ve tarikatlar, İstanbul 2004, 350s.
9. Mahmud Erol Kılıç, Sufi Kitap, 5.baskı. İstanbul.2019. 352 səh.
10. Mehmet Rıhtım. Qırxlar.Azərbaycanın Sufi Pirləri.Bakı-2014. 175 səh.
11. Osman Nuri Topbaş. İmandan İhsana Təsəvvüf. İstanbul-2002. 533 səh.
12. https://modern.az/az/news/41340 XI-XII əsrlərdə Azərbaycanda sufizm və sufilər, XI-XII əsrlərdə başlıca ideya. 6 İyul 2013
13. https://isamveri.org/pdfdrg/D03504/2016_20/2017_20_SEHRIYARQ.pdf

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi : filologiya üzrə fəlsəfə doktoru , dosent Günay Verdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur**